# Uğur hekayələri







# "ABŞ-də Azərbaycan gəncini, Azərbaycan təhsilini təmsil edəcəyik"

## ISEF – Beynəlxalq Elm və Mühəndislik Sərgisi"Sabahın alimləri"ni gözləyir

Elm sərhəd tanımayan bir sahədir. Bu sahədə uğur qazanan hər bir gənc zəka – insanlığın sabahına işıq saçır. Bu gün Azərbaycan məktəbliləri məhz belə bir işığa çevriliblər. "Sabahın alimləri" XIV Respublika layihə müsabiqəsinin I yer qaliblərinin sırasından seçilən və may ayında ABŞ-də keçirilən ISEF-Beynəlxalq Elm və Mühəndislik Sərgisinə getməyə hazırlaşan yeniyetmələrimiz artıq yalnız məktəb, ölkə miqyasında tanınmaqla kifayətlənmirlər. Onlar beynəlxalq elmi məkanlarda da tanınmaqda, fərqlənməkdə iddialıdırlar.

Bu layihədə iştirak edən şagirdlərin hər biri elmin müxtəlif sahələrinə dərindən yiyələnmiş, tənqidi düşünməyi, fərqli yanaşmalar qurmağı və innovativ həll yolları tapmağı bacaran gənc beyinlərdir. Onların təqdim etdiyi layihələr təkcə nəzəri biliklərə deyil, həm də real problemlərin araşdırılmasına və praktik həllinə əsaslanır. Bu isə bir daha sübut edir ki, Azərbaycan məktəblisi artıq dünya elmi ilə ayaqlaşa bilir, hətta onun inkişafına töhfə verməyə qadirdir. "Azərbaycan müəllimi" dünyanın ən nüfuzlu elm müsabiqəsi olan Beynəlxalq Elm və Mühəndislik Yarışmasında (ISEF) iştirak etmək üçün ABŞ-yə gedəcək şagirdləri oxucularımızla tanış edir.

### "Bu layihəni hazırlayanda sadəcə bir ideya vardı..."

Gülay Quluzadə və Leyla Əlizadə Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar bağça-lisey-məktəb kompleksinin X sinif şagirdləridir. "Sabahın alimləri" layihə müsabiqəsində "İnsulin rezistentliyi fonunda 3 təsir nöqtəsinin araşdırılması" mövzusunda tədqiqatlarını təqdim ediblər. Gülay deyir ki, diabet hazırda dünyanın ən ciddi sağlamlıq problemlərindən biridir. Xəstəliyin dünyada geniş yayılması qızları həmin mövzuda tədqiqat aparmağa sövq edib.

Leyla apardıqları tədqiqatlarında 2-ci tip diabet zamanı ən çox istifadə olunan metformin və amaryl dərmanları ilə xalq təbabətində istifadə edilən çəpişotu (galega officinalis) bitkisini tədqiq etdiklərini söyləyir: "Biz 3 preparatın antioksidant qabiliyyətini yoxladıq. Və nəticələr əsasında "galega officinalis"in ən yüksək antioksidant qabiliyyətə malik olduğunu gördük. Bu da onun diabetin müalicəsində daha effektiv ola biləcəyini göstərir".

Gülay və Leyla deyirlər ki, "Sabahın alimləri" XIV Respublika layihə müsabiqəsində qalib olacaqlarına əmin idilər. Səhnədə adları I yer qaliblərinin siyahısında səslənəndə qürur hissi keçiriblər.

Qızlar üçün bu müsabiqə həm də ikiqat sevincə səbəb olub. Belə ki, onlara böyük etimad göstərilib və hər iki şagirdimiz ABŞ-yə gedəcək seçilmişlərdəndirlər. Bölgə məktəblilərimizin belə bir mötəbər yarışmaya vəsiqə qazanması sadəcə bir uğur deyil, bu, uzun və zəhmətli bir yolun gözəl sonudur. Onlar qeyd edirlər ki, bu layihəyə başlayanda sadəcə bir ideya vardı və onu təqdim etmək üçün gecə-gündüz səylə çalışıblar və ölkəmizdə uğur qazanıblar. İndi isə onların layihələri beynəlxalq arenada təqdim olunacaq.

### "Səhiyyə sahəsində texnoloji yeniliklər etməklə fərq yaratmaq istəyirəm"

Tunar Məmmədli Bakı şəhəri İlqar Əbilhəsənov adına 42 nömrəli tam orta məktəbin, komanda yoldaşı Hüseyn İsmayılov isə Gəncə şəhər 27 nömrəli məktəb-liseyin XI sinif şagirdləridir. "Sabahın alimləri" XIV Respublika layihə müsabiqəsində onların "GazeMan" adlı layihəsi I yerə layiq görülüb. Bu layihə iflic xəstələri üçün göz əsaslı və ucuz qiymətli mobil cihaz idarə sistemi təklif edir. Hazırladıqları texnologiya xəstələrin internetə çıxışını təmin edərək həyata ümidlərini artırmaq məqsədi daşıyır. Tunar deyir ki, bu mövzunu seçməyinə səbəb valideynlərinin bir zamanlar onu həkimliyə yönəltmək istəmələri olub: "Mən isə öz maraqlarımı qoruyaraq, səhiyyə sahəsində texnoloji yeniliklər etməklə fərq yaratmaq istəyirəm".

Hüseyn də söyləyir, uzun müddət idi ki, iflic xəstələri ilə bağlı problemlər onları narahat edirdi. Və bununla bağlı mövcud çətinlikləri aradan qaldırmaq üçün araşdırmalara başlayıblar: "Həmin xəstələrlə keçirdiyimiz vaxt ərzində bu qənaətə gəldik ki, onların internetə çıxışını təmin edən həllər ya çox bahadır, ya da əlverişsizdir. Nəticə olaraq isə, gözün istiqaməti və vəziyyətinə uyğun olaraq cihazın idarə etməsinə imkan verən və gündəlik smartfonlarla işləyərək xərcləri minimuma endirən bir həllin onların həyatlarını asanlaşdırmaq üçün ən uyğun və rahat yollardan biri olduğunu gördük. Bizim hazırladığımız layihəyə əsasən, xəstələr mobil cihazlarını olduqları vəziyyəti dəyişmədən göz hərəkətləri vasitəsilə rahatlıqla idarə edə və sosial həyatlarına əlverişli şəkildə davam edə bilərlər".

Şagirdlərimiz onları qarşıda gözləyən ABŞ səfərindən danışaraq söyləyirlər: "Burada dünyanın hər tərəfindən ən güclü beyinlər toplaşacaq. Məqsədimiz Nobel mükafatçıları, şirkət nümayəndələri və bizimlə eyni maraq dairəsinə sahib olan insanlarla ünsiyyətdə olmaq, Azərbaycan məktəbliləri olaraq təqdim edəcəyimiz layihə ilə sözün yaxşı mənasında diqqətləri öz üzərimizə çəkməkdir".

### "ISEF-də iştirak etmək bizim üçün yeni bir mərhələdir"

ABŞ-yə gedəcək digər şagirdlərimiz Bakı şəhəri bağça-məktəb-lisey kompleksinin X sinif şagirdləri Nigar Səfərova və Şərif Şərifzadədir. Onların hazırladıqları "SmartMetro" adlı layihəsi "Sabahın alimləri" XIV Respublika layihə müsabiqəsində I yerə layiq görülüb.

Nigar söyləyir ki, elmə və texnologiyaya olan marağı onu daim yeniliklər üzərində düşünməyə və problemlərə innovativ həllər tapmağa sövq edib. Bu səbəbdən sinif yoldaşı Şərif Şərifzadə ilə birgə metro sistemlərində enerji istehsalını artırmaq və sıxlığı azaltmaq məqsədilə "SmartMetro" adlı layihəni hazırlayıblar. Onlar təqdim etdikləri layihədə metrolarda sərnişin sıxlığını düzgün idarə etmək və enerji itkisinin qarşısını almaq üçün bir sıra texnoloji həllər təklif ediblər.

Nigar layihə ilə bağlı fikirlərini bölüşür: "Bizim təqdim etdiyimiz "SmartMetro" layihəsi süni intellekt texnologiyaları ilə sərnişin axınını izləyərək sıxlığı azaltmağı hədəfləyir. Metro stansiyalarında kameralar və sensorlar quraşdırılır, sərnişinlərə mobil tətbiqlər vasitəsilə ən uyğun marşrutlar təklif edilir. Layihəmiz süni intellekt texnologiyalarını, enerji səmərəliliyini artıran innovativ həlləri və ictimai nəqliyyatın idarə edilməsində yeni yanaşmaları birləşdirir".

Nigarın həm komanda, həm də sinif yoldaşı olan Şərif Şərifzadə də layihə ilə bağlı bildirib ki, metropolitendə enerji effektiviyi və sıxlıq idarəetməsi ilə dayanıqlı nəqliyyat strategiyasının yaradılması bu layihənin əsas məqsədidir.

Şagirdlər deyirlər ki, eyni zamanda, bu layihə çərçivəsində "SmartMetro" adlı mobil tətbiqin yaradılması nəzərdə tutulur.

Nigar bildirir ki, onların layihəsi ən yüksək yerə layiq görüldü. İndi isə bunu dünyaya göstərmək vaxtıdır: "ISEF-də iştirak etmək bizim üçün yeni bir mərhələdir. ABŞ-də Azərbaycan gəncini, Azərbaycan təhsilini təmsil edəcəyik. Bizə olan etimad və inam qürurvericidir. İnanırıq ki, beynəlxalq miqyasda da ölkəmizi layiqincə təmsil edəcəyik".

**Samirə KƏRİMOVA**